Səh. 2 Süni intellek epoxasında süni pul dağıdanlar – Azər Musaoğlu

Səh. 3 Məhərrəm ayı – Hacı Bəkiroğlu

Səh. 5 Türk kosmoqonik düşüncəsində bayrağın yeri – Afiq Muxtaroğlu

Səh. 6 Özümlə müsahibə – Anar Rafiqoğlu

Səh. 2 Milli kimliyimiz – Cəlal Yadigarlı

Səh. 4 ATTESTAT ALMAQ ÜÇÜN ƏRİZƏLƏRİN QƏBULUNA BAŞLANILIB

Səh. 7 Nahaqdan tökülən qan – Aleksandre Orbeliani



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN 2025-Cİ İL № 11 (228)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## GÜRCÜSTAN ƏHALİSİNİN SAYI 3 MİLYON 914 MİN NƏFƏR TƏŞKİL EDİB



Gürcüstanda 2024-cü il üzrə əhalinin siyahıyaalınmasının ilkin nəticələri məlum olub.

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2024-cü il noyabrın 14-nə olan vəziyyətə görə, ölkə əhalisinin sayı 3 milyon 914 min nəfər təşkil edib.

Əhalinin 2 milyon 78 min nəfərini (təxminən 53 faiz) qadınlar, 1 milyon 836 min nəfərini (47 faiz) isə kişilər təşkil edir.

Bundan başqa, əhalinin 2 milyon 423 min nəfəri (62 faiz) şəhərlərdə, 1 milyon 491 min nəfəri isə (38 faiz) kəndlərdə yaşayır. Regionlar üzrə isə Tbilisi istisna olmaqla, şəhər tipli yaşayış məntəqələrində ən yüksək pay sahibi Acarıstandır (66 faiz).

Əhalinin şəhərdə yaşama göstəricisi Mtsxeta-Mtianetidə 20 faiz, Kaxetidə 21 faiz, Raça-Leçxumi və Kvemo Svanetidə isə 24 faiz təşkil edir.

Siyahıyaalmanın nəticələrinə görə, Tbilisidə Gürcüstan əhalisinin 34 faizi yaşayır. Əhalinin sayına görə ikinci yerdə İmereti (12,9 faiz), üçüncü yerdə isə Kvemo Kartli (11,2 faiz) qərarlaşıb.

## YENİ İQTİSADİYYAT NAZİRİ MARİAM KVRİVİŞVİLİ TƏYİN OLUNUB



Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri postuna Mariam Kvrivişvili təyin edilib. Bu barədə Baş nazir İrakli Kobaxidze hökumət administrasiyasında keçirilən brifinqdə məlumat verib.

O deyib ki, Mariam Kvrivişvili artıq ictimaiyyətə yaxşı tanınır və onun əlavə təqdimata ehtiyacı yoxdur.

“Kvrivişvili uzun illərdir iqtisadiyyat və aviasiya sahəsində fəaliyyət göstərir, nazir müavini kimi özünü təsdiqləyib. Əminəm ki, o, bu vəzifədə də uğur qazanacaq”, – deyə İ.Kobaxidze bildirib.

Qeyd edək ki, Mariam Kvrivişvili hakim partiyanın siyasi şurasının üzvüdür, 2019-2020-ci illərdə Milli Turizm Administrasiyasına rəhbərlik edib, 2021-ci ildən isə iqtisadiyyat nazirinin müavini vəzifəsində çalışıb.

Xatırladaq ki, bu dəyişiklik Levan Davitaşvilinin iqtisadiyyat naziri vəzifəsindən istefa verməsindən sonra baş verib. O, bundan sonra Baş nazirin iqtisadi məsələlər üzrə baş müşaviri və İqtisadi Şuranın katibi vəzifələrində fəaliyyət göstərəcək.

## MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASI SENTYABRDAN LƏĞV EDİLƏCƏK



Gürcüstan parlamenti “Milli təhlükəsizlik siyasətinin planlaşdırılması və əlaqələndirilməsi haqqında” qanuna Təhlükəsizlik Şurasının ləğvini nəzərdə tutan düzəlişləri üçüncü və yekun oxunuşda qəbul edib. Bu barədə qanunverici orqanın mətbuat xidməti məlumat yayıb.

Dəyişiklikləri 83 deputat dəstəkləyib.

“Dəyişikliyə əsasən, Milli Təhlükəsizlik Şurası 2025-ci il sentyabrın 1-dən ləğv ediləcək. Həmçinin müəyyən edilib ki, Gürcüstan hökuməti milli təhlükəsizlik siyasətinin planlaşdırılması üzrə əlaqələndirici orqan olacaq”, – mətbuat xidmətinin bəyanatında qeyd olunub.

Dəyişikliklərə əsasən, Milli Təhlükəsizlik Şurasının ləğvi üçün xüsusi komissiya yaradılacaq. Onun tərkibini və səlahiyyətlərini hökumət müəyyən edəcək.

## GİORGİ QVARAKİDZE GÜRCÜSTANIN YENİ BAŞ PROKURORU SEÇİLİB



Gürcüstan parlamenti Giorgi Qvarakidzeni ölkənin Baş prokuroru vəzifəsinə təsdiqləyib.

Məlumata görə, namizədin təsdiqlənməsi parlamentin iyunun 24-də keçirilən plenar iclasında səsverməyə çıxarılıb. Giorgi Qvarakidzenin lehinə 83 deputat səs verib, əleyhinə səs verən olmayıb.

Səsvermədən öncə Giorgi Qvarakidze Hüquqi Məsələlər Komitəsinin iclasında iştirak edib. O, prokurorluğun əsas prioritetləri, qarşıda duran çağırışlar və fəaliyyət planları ilə bağlı çıxış edib.

Xatırladaq ki, onun namizədliyi 18 iyun tarixində Gürcüstanın Prokurorluq Şurası tərəfindən səs çoxluğu ilə irəli sürülmüşdü.



# SÜNİ İNTELLEK EPOXASINDA SÜNİ PUL DAĞIDANLAR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Camaat diyircəkli qələmdən tutmuş nanotexnologiyalara qədər hər il yeni-yeni ixtiralar, kəşflər edir, insan əməyini asanlaşdırmaq üçün yeni-yeni cihazlar, avadanlıqlar, maşınlar düzəldir, robotlar yaradır. Sağalmaz xəstəliklərin öhdəsindən gəlmək üçün yeni-yeni dərmanlar sınaqdan keçirir, köhnə tibbi aparatları təkmilləşdirir, məsələn, xərçəngi qansız-qadasız müalicə etmək üçün "Varian TrueBeam" kimi ultramüasir radiocərrahiyə aparatı düzəldir. Yeni-yeni müdafiə və hücum silahları fikirləşir... Bir sözlə, insanların rahatlığı, təhlükəsizliyi, sağlamlığı, istirahəti, müdafiəsi üçün məişət texnikasından tutmuş ağıllı evlərə qədər ixtira edir, düzəldir, yaradır, istehsal edir və sair və ilaxır.

Bəs bizimkilər nə edir? Bizimkilər nə düzəldir, nə yaradır, nə fikirləşir, nə ixtira edir, nə kəşf edir, dünyaya nə istehsal edir? – Toyda dağıtmaq üçün saxta pul.

Vallah, bu yalnız bizim ağlımıza gələ bilərdi. Əvvəl Gürcüstanın pul vahidi larinin 1-lik, 2-lik əsginasları var idi. Toyda bu kağız 1-likləri, 2-likləri dağıdırdıq. Sonra tale elə gətirdi ki, 1-lik və 2-lik kağız lari dəmirlə əvəz olundu. Bizimkilər qaldı mat-məəttəl. İndi nə edək, necə edək ki, toylarda pul dağıda bilək. 5-lik, 10-luq dağıtmaq xeyir eləmir, adam lap bankrot olar. Gərək İlon Maskdan-zaddan əmiuşağın ola ki, bizim toylarda 5-lik, 10-luq lari dağıdasan. Maşallah, toylar bol, rəqs edənlər bol. Özünü göstərmək, özünü ifadə etmək üçün əsl fürsətdir. Kim bilir, bir də nə zaman, kimin toyunda pul dağıtmaq üçün belə fürsət olacaq. Bir də, o necə toydur ki, orada kimsə pul dağıtmır. Adama deməzlərmi, toyunda qalaq-qalaq pulları səpələyəndə yaxşımı idi? İndi sən də gəl mənim xeyir işimdə əvəzini çıx. Dağıtmasan eldən-obadan ayıb olar. Axı əl əli yuyar, əl də üzü. Amma üzü qara olsun belə pulun, heç gör kağız 1-lik, 2-lik də olmazmı? Bilirəm, indi bunu oxuyan yaşlı nəsil ürəkdən bir of çəkib dodaqlarında nostalji təbəssümlə deyəcəklər: Heyif deyildi sovet pulu, kağız 3-lüyü də var idi.

Əşşi, Allah var, bu dəmir 1-likləri, 2-likləri də yığışdırsınlar. Necə deyərlər, bircə ölümə çarə yoxdur. Bizimkilər bunun da çarəsini tapdılar. Toylarımızda dağıtmaq, səpələmək üçün Rusiyadan qalaq-qalaq 10 rubllar gətirdilər. Tale elə gətirdi ki, Rusiya ilə aramız dəydi... Sonra başladıq Azərbaycandan qalaq-qalaq 1-lik manatlar gətirməyə. Toy mövsümündə pul dəyişmə məntəqələrində 1-lik manat qalmırdı. Hamı alıb yığırdı cibinə, yollanırdı toya.

Qara günün ömrü az olsun. Yenə tale elə gətirdi ki, Azərbaycan quru sərhədlərini bağladı. Bizimkilər yenə əl-ayağa düşdülər, gecə-gündüz fikirləşdilər ki, bəs toyda pul nə dağıdacağıq, ayıbdır, borclu borclunun sağlığını istər, bunun borclusu var, özünü göstərmək, özünü ifadə etmək istəyəni var, rəqs etmək istəyəni var, adı çəkiləni var və sair.

Və camaatın müasir texnologiyalar, dərmanlar, silahlar ixtira etdiyi bir dövrdə bizimkilər toyda dağıtmaq üçün yalançı Azərbaycan manatı, bildiyin fantik çap edib dövrəyə buraxdılar. Onsuz da hamının başı toya qarışır – rəqs edən kim, tamaşa edən kim, keflənən kim, rəqs etməyin üstündə dava salan kim... Kimdir ey sənin bu fantiklərinin doğruçu olub-olmadığına fikir verən, yoxlayan. Əsas odur ki, dağıtmağa, səpələməyə nəsə pul fason bir zad olsun.

Ümumiyyətlə, bu pul dağıtmaq nəyə lazımdır? Toylarda gəlinin və bəyin başından pul dağıtmaq, pul səpələmək kimi mənasız, şit, bambılı, tərbiyəsiz hərəkət yoxdur yer üzündə. Süni İntellek epoxasında süni pul düzəldib toylarda "filankəs yaman pul səpələdi" desinlər deyə qalaq-qalaq fantik dağıtmaq çürük lovğalıqdan, boş eqodan, mənasız hay-küydən, maraqsız şoudan, toy kasetlərinə düşən yalançı obrazdan başqa heç nə deyil.

Sonra da deyirsiniz, bizimkilər heç nə ixtira etmir, fikirləşmir, yaratmır, düzəltmir, kəşf etmir. Edir – toyda dağıtmaq üçün saxta pul.

Nə məcburdur axı?..

# ZİBİL ALTINDA QALAN COĞRAFİYA



Səhər oyanıb həyətə çıxdıqda ilk eşidilən nə sərin səhər küləyi, nə də quşların cəh-cəhidir. Gözümüzə dəyən, burnumuza çarpan ilk şey ağır bir zibil qoxusudur. Bəlkə hər səhər deyil, amma yetərincə tez-tez rastlaşırıq ki, artıq adi hala çevrilib.

Zibil qabı çoxdan öz funksiyasını itirib. Tullantılar yola yayılıb. Orada-burada it-pişiklərin dağıtdığı parçalanmış torbalar, tökülmüş yemək qalıqları, boş plastik qablar gözə dəyir. Küçənin mənzərəsi ürəkbulandırıcı vəziyyətdə olur. Hər kəs burnunu tutaraq zibil qutusunun yanından keçir. Məhlənin uşaqları zibillərin üstündən keçir. Bəzən zibili futbol topuna çevirərək məktəbə gedirlər. Küçə susur. Zibilin qoxusu isə hər yeri bürüyür. Amma sanki hamı bu mənzərəyə və bu qoxuya alışıb. Heç kimdən səs çıxmır. Küçənin dili yoxdur, bəs bu küçədə yaşayan sakinlərin?

Kimə nəsə desən cavab eynidir: "Kimdir bizi eşidən?", "Özləri görüb gələrlər", "Heç kimə deməyək, birdən bizə cərimə yazarlar", "Deyəcəklər bu qədər zibili siz tökmüsünüz..." Başa düşə bilmirəm, bu nəyin qorxusudur? Zibil qutusunu ora qoyublar ki, zibil ataq, yoxsa zibil qutusunu təmiz saxlayaq?

Əvvəllər, ümumiyyətlə, məhlədə zibil qabı yox idi. İnsanlar zibilini iki məhlə uzaqda olan qutuya aparıb atırdılar. Bir neçə nəfər, necə deyərlər "ürək yeyib" narazılığını bildirdi. Onda da seçki ərəfəsi idi. Zibil qabı gətirib qoydular. İndi "arada" gəlib təmizləyirlər. Amma bu yetərli deyil. Gecikmiş təmizlik küçənin gündəlik vəziyyətini dəyişmir.

Zibil qabı dolu olduqda hər kəs zibili sadəcə qabın yanına tökür. Sual verəndə ki, "Zibili niyə qırağa tökürsən?", cavab həmişə olduğu kimi hazırdır: "Bəs hara ataq? İçində yer yoxdur".

Əgər zibil qabı doludursa bu, bəhanə deyil ki, zibili yerə ataq. İnsanlar bir zəng vurmağa belə tənbəllik edirlər. Vətəndaş olmaq təkcə seçkidə səs vermək deyil, ətraf mühitə sahib çıxmaq da vətəndaşlıqdır. Amma görünür çoxumuz bunu ya heç anlamırıq, ya da vecimizə deyil.

Zibilin günlərlə yığılması sadəcə tənbəllik deyil, məsuliyyətsizlikdir. Bələdiyyələr büdcədən vəsait alır, maaşlar verilir, amma nəticə? – Küçələr zibil içində qalır. Kimlər nə işlə məşğuldur?

Zibilin daşınmaması təkcə yayılan pis qoxu ilə bitmir. Bu sağlamlıq problemidir. Bu mədəniyyət problemidir, həm də məsuliyyət məsələsidir. Məktəbə gedən uşaqlar, həyətə çıxan yaşlılar, səhər işə tələsənlər, bir sözlə, hamı bu zibilin üfunəti ilə nəfəs almağa məcburdur. Ən acınacaqlısı odur ki, bu rüsvayçı mənzərə artıq heç kimi təəccübləndirmir. İnsanlar o qədər öyrəşib ki, üfunətlə nəfəs almaq normal qəbul olunur. Susmaq sanki yeni həyat tərzinə çevrilib. Sanki hamı bu iylə yaşamağa məhkum olduğunu qəbul edib.

Zibil problemi təkcə görünən çirkli mühit deyil, həm də içimizdəki laqeydliyin göstəricisidir. Bu hal insanlar arasında olan münasibətlərə də təsir göstərir. Necə? – Qonşular bir-birinə irad bildirməkdən çəkinmir. Kimsə nəyisə düzəltmək istəyəndə ətrafdakılar ona qəribə baxır, "özünü yorma, heç nə dəyişməz" deyirlər. Hansı ki, dəyişiklik bir insanla başlayır. Biri addım atsa, digəri ona mane olmaq yerinə onunla birlikdə addım ata bilər. Əgər hər kəs zibilini düzgün yerə atsaydı (zibil qabı dolu olduqda yerə atmaq əvəzinə aidiyyəti qurumlara bu vəziyyəti bildirsəydi) küçələr bu hala düşməzdi.

Yayda bu qoxunun nə qədər ağır olduğunu təsəvvür etmək çətin deyil. Hər şeyin başlanğıcı isə kiçik bir addım və məsuliyyətdir. Sadəcə bir addım atmaq böyük dəyişikliklərə səbəb olur. Necə deyirlər: "Bir damcı su bir dəniz olar". Zibili zibil qabına atmaq, dolubsa gözləmək, ehtiyac varsa zəng etmək və sair çətin deyil. Sadəcə istəyimiz və iradəmiz olmalıdır. Bəlkə küçənin dili yoxdur, amma biz ki danışa bilirik. Səssiz qalmaqla problemi yox etmirik, əksinə, daha da dərinləşdiririk.

Məhləmizdə insan-məkan münasibətini yaxşı bilən, təbiət və ətraf mühit haqqında dərindən düşünə bilən, dünya xəritəsini əzbər bilən insanlar var. Amma coğrafiya təkcə dağ silsilələri, çay adları və paytaxt şəhərlərlə məhdudlaşmır. Coğrafiya yaşadığımız mühitdir, nəfəs aldığımız havadır, ayaq basdığımız küçədir... Əgər biz bu küçəyə laqeyd yanaşırıqsa, deməli ki, coğrafiyanı yalnız dərsliklərdə saxlamışıq, həyatda yox.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 1-ci kurs tələbəsi*

# MİLLİ KİMLİYİMİZ



Borçalı türklərinin milli kimlik məsələsi son zamanların gündəm mövzularından biridir. Borçalı gəncliyi hər ağızdan bir söz eşidir və hansına inanacağına qərar verə bilmir. Halbuki bir zamanlar Borçalının aqibəti kimsəni maraqlandırmaz, toz basmış tarixin vərəqləri açılmazdı.

Tarix elmi cəmiyyəti əhatə etdiyindəndir ki, cəmiyyətin hər təbəqəsi tarix haqqında bir mülahizə irəli sürür. Hər kəsin fərqli yanaşması, fərqli konsepsiyası ola bilər, amma unutmamaq lazımdır ki, tarix mənbələrə əsaslanan elmdir. Cəmiyyətin keçmişi, kimliyi haqqında nəsə deyəndə mütləqdir ki, sözümüz bir mənbədə əsasını tapsın.

Sağlam bir cəmiyyətin yaranması üçün milli ideologiya və mənəvi birlik şərtdir. Bütün böyük dövlətlər və inkişaf etmiş cəmiyyətlər vahid ideologiyaya əsaslanırdı. Bu gün Borçalı cəmiyyətinin də sağalması üçün, Gürcüstanın siyasi, ictimai, ədəbi sahələrində mühüm yer tutması üçün vahid ideologiyaya sahib olması şərtdir. Bəs bu ideologiya nə ola bilər? – Şübhəsiz ki, bu, milli ideologiyadır.

Biz qıpçağıq, oğuzuq, qarapapağıq deyə bölünmək bizə fayda verməyəcək. Tarixən də bu bölgülər əsassızdır. Qafqaz bölgəsində hun türkləri, bun türkləri, qıpçaq türkləri yaşamışdı, amma gəlin görək borçalıların bunlarla əlaqəsi nədir?

Tarixi mənbələri oxumağa imkanı olmayanlar üçün çox asan bir üsul olaraq Ahıska türkləri ilə Borçalı türklərini müqayisə etməyi tövsiyyə edirəm. Borçalılar türk-oğuz qrupuna daxildir, oğuzdur. Oğuz türklərini günümüzdəki coğrafi faktorlara əsasən 3 böyük qrupa bölə bilərik: türkmənlər (Türkmənistan, Xorasan və s.), Azərbaycan türk-oğuz qolu (Azərbaycan, Borçalı, Güney Azərbaycan, Dərbənd, Qars, Iğdır) və Türkiyə türk-oğuz qrupu (Türkiyə, Mosul, Kərkük, Balkan). Acınacaqlı bir haldır ki, bizim ədiblərimiz, alimlərimiz çıxıb deyir: "Biz azərbaycanlı deyilik". Azərbaycanı sadəcə coğrafi mühit olaraq qəbul etsək, bəli, biz Azərbaycanda yaşamırıq. Amma Azərbaycanı biz türk-oğuz qrupunun bir qolu olaraq qəbul etmişik axı. Borçalı ədəbi, leksik, mədəni sahələri ilə Azərbaycan mədəniyyətinə aiddir. Biz yer olaraq Azərbaycanlı deyilik, amma millət olaraq türk-oğuz qrupunun Azərbaycan qoluna aidik. Nə Azərbaycan, nə Türkiyə, nə Türkmənistan, nə Qazaxıstan və nə də başqa türk dövlətləri ayrı-ayrı milli kimlik daşımır. Ortaq kimliyimiz türkdür. Borçalını ayrı bir qol olaraq göstərməyə ehtiyac yoxdur və bu, əsassızdır. Günümüzdə bizə lazım olan bölünmək, "sən qıpçaqsan, mən oğuzam" deyə parçalanmaq deyil. Böyük türk millətini uçuruma aparmamlıyıq. Borçalı türkmənləri də öz tarixini, milli kimliyini, vahid ideologiyasını qoruyaraq Gürcüstanda öz mövqeyini qorumalıdır.

Əsrlərdir gürcü millətiylə eyni vətənin çörəyini bölüşən Borçalı türkmənləri bu gün Türkiyə-Gürcüstan-Azərbaycan arasında bir körpüdür. Əgər biz həm öz milli dəyərlərimizi qorusaq, həm Gürcüstan dövlətinin dövlət dilini, siyasət dilini, mədəniyyət dilini dərindən mənimsəsək üç dövlət arasında sarsılmaz bir körpü ola bilərik. Gənclərimiz arasında dünyəvi, iqtisadi, ticari, elmi mövzularla yanaşı milli diskussiyaları da təbliğ etməliyik. Bir türk gənci elmdə də, ticarətdə də, siyasətdə də, ailə strukturunda da güclü olmalıdır, ayağını yerə bərk basmalıdır, min il dünyaya hökm edən bir millətin varisi olduğunu bir saniyə belə unutmamalıdır.

**Cəlal YADİGARLI**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 3-cü kurs tələbəsi*

# MƏHƏRRƏM AYI



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

İslam təqvimi Məhərrəm ayı ilə başlayır. Bu ay sadəcə bir matəm və yas ayı kimi tanınmamalıdır. Çünki Məhərrəm həm mənəvi dərinliyi, həm də tarixi əhəmiyyəti ilə seçilən, islam tarixində dönüş nöqtələrini ehtiva edən xüsusi bir aydır. Bu ay həm sevinc, həm dərd, həm də dərindən düşünmək üçün fürsət təqdim edir.

Hicrətin özü, yəni Həzrət Məhəmmədin (s.ə.s.) Məkkədən Mədinəyə köçü, tarixən Səfər ayında başlamış, Rəbiul-əvvəl ayında başa çatmışdır. Amma buna baxmayaraq, hicri təqvimin başlanğıcı üçün Məhərrəm ayı seçilmişdir. Hicrət islam tarixində və dünya tarixində böyük əhəmiyyət kəsb etdiyi, dünyada hicrətdən sonra yeni bir səhifənin açıldığı üçün Həzrət Ömər dövründə təsis edilən yeni təqvimin ilk ayı olaraq da məhz Məhərrəm ayı seçilmişdir. Bu seçim yalnız xronoloji deyil, həm də mənəvi və simvolik dəyərlərə əsaslanır. Çünki hicrət sadəcə bir şəhər dəyişikliyi deyil, haqq yolunda böyük bir fədakarlıq, ilahi əmrlə həyata keçirilmiş cəsarətli bir qərar idi. Məhz bu səbəbdən Məhərrəm ayı bir başlanğıcın, bir dirçəlişin rəmzi olaraq qəbul edilir.

Məhərrəm ayı təkcə Həzrət Məhəmmədin (s.ə.s.) deyil, digər peyğəmbərlərin də həyatında mühüm dönüş nöqtələrinin yaşandığı aydır. Rəvayətlərə görə, Adəmin (ə) tövbəsi bu ayda qəbul olunmuş, Nuhun (ə) gəmisi tufandan sonra bu ayda quruya çıxmış, İbrahim (ə) atəşdən salamat çıxmış və Musa (ə) bu ayda Fironun zülmündən xilas olmuşdur. Xüsusilə Musa (ə) ilə bağlı olan Məhərrəm ayının 10-cu günü – Aşura islam tarixində xüsusi yer tutur. Həzrət Peyğəmbər (s.ə.s.) Mədinəyə hicrət etdikdən sonra yəhudilərin bu gündə oruc tutduğunu görüb səbəbini soruşmuş, onlar da "Bu gün Musa Firondan xilas oldu" cavabını vermişdilər. Peyğəmbər (s.ə.s.) isə buyurmuşdu: "Biz Musaya sizdən daha layiqik". Və bu gündə oruc tutmağı təşviq etmişdi.

Aşura günü orucu günahların bağışlanmasına vəsilə sayılan müstəhəb ibadətlərdəndir. Həzrət Peyğəmbər (s.ə.s.) bu orucu fərqli şəkildə tutmağı – ya bir gün əvvəl, ya da bir gün sonra əlavə etməyi tövsiyə etmişdi ki, digər dinlərə bənzəməkdən fərqlənək.

Məhərrəm ayı həmçinin islamdan öncə də, islamdan sonra da haram sayılan dörd aydan biridir. Bu aylarda qan tökmək, müharibə etmək kimi bir çox şeylər qadağan olunmuşdur.

Məhərrəm ayında baş vermiş ən əhəmiyyətli hadisələrdən biri də Məhərrəm ayının 10-da, yəni Aşura günündə meydana gələn Kərbəla hadisəsidir. Həzrət Hüseyn və 72 səhabəsi bu ayda haqq uğrunda şəhid edildi. Onlar təkcə bir mübarizə aparmadılar, həm də bir məktəb quraraq gələcək nəsillərə ədalətin, şərəfin və fədakarlığın nə olduğunu göstərdilər. Həzrət Hüseyni Kərbəlaya çağıranlar onu tək buraxsa da, ona qarşı gələnlərin içərisindən onun səfinə keçənlər də olmuşdu. Yəni ki, Kərbəla hadisəsi bir tərəf məsələsi deyil, bir Peyğəmbər aşiqi, bir haqq uğrunda mücadilənin simvolu idi. Kərbəla bir səssiz qışqırıqdır, vicdanların oyandığı bir dərsdir. Hüseyn haqsızlığa tabe olmadı, amma ədalətə tabe olmaq üçün canından keçdi. Onun duruşu zamanları aşan bir çağırışdır.

Beləliklə, Məhərrəm ayı bizə yalnız ağlamağı deyil, həm də düşünməyi, öyrənməyi və haqq yolunda səbir və təslimiyyətlə direniş göstərməyi öyrədir. Bu ay bir dərs ayıdır. Unutmayaq ki, Hüseynin şəhadəti bir son deyil, yeni bir başlanğıcdır. Hər Məhərrəm vicdanın yenidən dirçəliş vaxtıdır.

## ƏGƏR ŞAGİRD MÜƏLLİMƏ ETİRAZ OLARAQ DƏRSDƏ İŞTİRAK ETMİRSƏ ONA "YOX" YAZILMAYACAQ



Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi Xalq Müdafiəçisinin tövsiyəsini nəzərə alıb.

Ombudsman Aparatının məlumatına görə, Xalq Müdafiəçisi Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin şagirdlərin dərsdə iştirak etməsinin qeydə alınmasının ümumi qaydasının hazırlanması, müvafiq qeydin qanunvericilikdə təsvir edilməsi ilə əlaqədar qərarını alqışlayır.

2024-cü ilin 8 oktyabrında Xalq Müdafiəçisi Gürcüstanın təhsil, elm və gənclər nazirinə şagirdlərin zorakılıqdan qorunması, emosional təhlükəsiz mühitin təmin edilməsi, monitorinqin həyata keçirilməsi tövsiyəsi ilə müraciət edib.

Fərdi işin araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, milli təhsil sistemi, hər hansı müəllimin dərslərinə özlərinin və ya digər uşaqların hüquqlarının pozulması ehtimalına etiraz olaraq qatılmayan şagirdlərə fərqli yanaşmanı nəzərdə tutmur. Belə hallarda məktəb tərəfindən həmin şagirdin başqa bir müəllimin dərslərində iştirak etməsi təmin olunа bilsə də, dərs buraxılışları yenə də qeydiyyata alınır.

Xalq müdafiəçisinin qiymətləndirməsinə görə, bütün bunlar təhsilə çıxışın təmin olunması üçün effektiv və uşaqlara uyğunlaşdırılmış yanaşmanın tətbiqinə ehtiyac olduğunu göstərirdi.

***"2025-ci il 9 iyun tarixində əldə olunmuş məlumata əsasən, Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi Gürcüstanın Xalq Müdafiəçisinin tövsiyəsini tam şəkildə qəbul etmiş və şagirdlərin dərslərdə iştirakının qeydiyyatı ilə bağlı ümumi istisna qaydasının hazırlanması və bununla bağlı müvafiq müddəanın qanunvericilikdə əks etdirilməsi barədə qərar qəbul etmişdir. İstisna qayda, müəllim tərəfindən ehtimal olunan hüquq pozuntusu hallarında, şagirdin həmin müəllimin dərslərinə qatılmaması və eyni zamanda dərslərin ona başqa bir pedaqoq tərəfindən keçirilməsi hallarına aid olacaq. Bununla yanaşı, Məktəbəqədər və Ümumi Təhsilin İnkişafı Departamentinin hadisənin idarə olunması prosesinə cəlb olunması və bu prosesə nəzarətin təmin edilməsi öhdəliyi müəyyənləşdiriləcək",*** – deyə Xalq Müdafiəçisi bildirib.

Gürcüstan Xalq Müdafiəçisi Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin qərarını müsbət qiymətləndirir və qeyd edir ki, şagirdlərin fiziki, psixoloji-emosional təhlükəsizliyi təhsil hüququnun tam həyata keçirilməsinin fundamental ön şərtidir.

Bundan əlavə, Xalq Müdafiəçisi hesab edir ki, təhsil sistemində uşaq hüquqlarının qorunması və onlara dəstək olan mühitin təmin edilməsi çox mühümdür və bu məqsədə nail olmaq üçün qurumlararası əməkdaşlıq, vahid baxışın əhəmiyyətinin olması daha vacibdir.

## ATTESTAT ALMAQ ÜÇÜN ƏRİZƏLƏRİN QƏBULUNA BAŞLANILIB



İyunun 23-dən attestat almaq üçün ərizələrin qəbuluna başlanılıb.

Attestat almaq üçün aşağıdakı prosedurlardan keçmək tələb olunur:

**Attestatı almaq üçün hara müraciət etmək lazımdır?**

- Ədliyyə Evlərinə;
- Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin ərazi xidmətlərinə.

**Kim attestat almaq üçün ərizə verə bilər?**

- Şagirdin özü (əgər şəxsiyyət vəsiqəsi varsa);
- Şagirdin qanuni nümayəndəsi (azyaşlı şagirdin valideyni və ya etibarnaməsi olan şəxs).

**Təqdim olunası sənədlər:**

- Şəxsiyyəti təsdiq edən sənəd;
- Ad və soyadın dəyişdirilməsini təsdiq edən sənəd (belə hal olarsa);
- Təmsilçinin vəsiqəsi (qanuni nümayəndə üçün).

**Attestat hansı müddətə verilir?**

- Attestatı pulsuz almaq üçün ərizə verildiyi gündən 10 iş günü müddətində;
- Attestatın təzləşdirilmiş qaydada alınması pulludur.

## TƏHSİL SEKTORUNDA ƏMƏKHAQQI ARTIB



Gürcüstan Milli Statistika Xidmətinin yayımladığı məlumata əsasən, 2025-ci ilin birinci rübündə Gürcüstanda orta aylıq əməkhaqqı 2170 lari təşkil edib. Gəlir vergisini çıxmaqla alınan maaş 1736 laridir.

Milli Statistika Xidmətinin 16 iyunda yayımladığı göstəricilərdən aydın olur ki, 2024-cü ilin müvafiq dövrü (birinci rübü) və dördüncü rübü ilə müqayisədə təhsil sektoru axırdan ikinci yerdə qərarlaşıb.

Belə ki, 2024-cü ilin birinci rübündə təhsil sektorunakı orta aylıq əməkhaqqı 1126 lari təşkil edirdisə, 2025-ci ilin birinci rübündə bu məbləğ 1341 lari təşkil edib.

2025-ci ilin birinci rübündə Gürcüstanda orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,7 % (226,7 lari) artıb və 2170,1 lari təşkil edib.

***İş növlərinə görə yüksək əməkhaqqı aşağıdakı sahələrdə qeydə alınıb:***

- Maliyyə və sığorta işləri – 5515,1 lari (ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,0 faiz artıb);
- İnformasiya və kommunikasiya – 4163,0 lari (5,2 faiz artıb);
- Peşə, elmi və texniki işlər – 2 975,7 lari (11,3 faiz artıb);
- Tikinti sektoru – 2908,9 lari (10,8 faiz artıb).

2025-ci ilin birinci rübündə qadınların orta aylıq əməkhaqqı 1744,2 lari, kişilərin isə 2601,3 lari təşkil edib. Əməkhaqqının illik artımı qadınlarda 204,1 lari (13,3 %), kişilərdə 258,0 lari (11,0 %) təşkil edib. İş növlərinə əsasən kişilərin əməkhaqqı qadınlarınkından, demək olar, bütün sahələrdə artıqdır.

"2025-ci ilin birinci rübündə işə götürülənlərin orta aylıq əməkhaqqı biznes sektorunda 184,2 lari (9,3 %) artıb və 2169,6 lari təşkil edib. İş növlərinə görə ən yüksək əməkhaqqı informasiya və kommunikasiya (4255,4 lari, ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz artıb) sahəsindədir. Peşə, elmi və texniki işlər sahəsində isə 3402,5 lari təşkil edir (12,1 faiz artıb)" – Milli Statistika Xidməti tərəfindən yayımlanmış hesabatda qeyd olunub.

Göstəricilərə əsasən, orta aylıq əməkhaqqının çoxluğu ilə regionlar arasında Tbilisi liderlik edir, sonuncu yerdə isə Raça-Leçxumi və Kvemo Svanetidir.

## SENTYABRIN 1-DƏN TƏHSİL VƏ ELMİ İNFRASTRUKTURUN İNKİŞAFI AGENTLİYİ LƏĞV OLUNUR



24 iyunda Parlamentin Təhsil, Elm və Gənclərin İşi üzrə Komitəsinin iclasında birinci oxunuşda, sürətləndirilmiş qaydada "Ümumi təhsil haqqında" qanundakı dəyişikliklər müzakirə olunub.

İclasda aydın olub ki, Təhsil, Elm və Gənclər Nazirliyinin mühüm təşkilatlarından biri ləğv olunur.

Təhsil, Elm və Gənclərin İşi üzrə Komitənin sədri Givi Mikanadzenin sözlərinə görə, 2025-ci ilin 1 sentyabrından Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyi ləğv olunacaq və onun səlahiyyətləri müvafiq nazirliklərə bölünəcək.

***"Təhsil müəssisələrinin tikintisi və bərpası prosesində vahid yanaşmanın təmin olunması məqsədilə Gürcüstan hökuməti agentliyin səlahiyyətlərini qəbul edəcək uyğun qurumları müəyyən etməli və onlara aid hüquqları ötürməlidir",*** – deyə Givi Mikanadze bildirib.

Komitə sədri qeyd edib ki, bu qanunvericilik dəyişikliyi mövcud layihələrin icrasına heç bir problem yaratmayacaq.

***Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.***

***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# TÜRK KOSMOQONİK DÜŞÜNCƏSİNDƏ BAYRAĞIN YERİ



M.Fasmer yazır ki, qədim türk dillərində "hündür", "dağ" anlamlarını əks etdirən bayır sözü mövcud olub. Bayraq da həmin sözlə bağlıdır, "yuxarı qaldırılan" deməkdir (Bəşir Əhmədov. Etimologiya lüğəti).

Başqa bir versiyaya görə, bayraq sözünün əsli türkcədə mızraq anlamına gələn "batrak"dır. Oğuzların batrak şəklində istifadə etdikləri söz uyğurlarda batırmaq, sancmaq manasında işlədilən "batruk" idi. Qədim türklər torpağa sancılan, batırılan mızrağın üzərinə xanədanlığı təmsil edən rənglərdə parçalar, iplər asardılar. Mızrağın ucuna da qızıldan və ya digər qiymətli metallardan qurd başı kimi xaqanlıq rəmzi taxılırdı. "Torpağa batırılan mızraq" anlamındakı bayraq sözünün mənası zaman keçdikcə daha da genişlənərək yeni mənalar əxz etmişdir.

"Tuğ" əski türkcədə bayraq deməkdir. Tarixi bilgilərə görə, tuğ başına at və ya çöl öküzü quyruğu bağlanan nizədir. Tuğ bayraq və sancaqdan fərqli bir bəlgə idi. Bu bəlgə ordu, qoşun başçılarına təqdim olunurdu. Vəzifədən asılı olaraq tuğun sayı dəyişilirdi. Əski türk savaş nizamında "Tümən tuğu", "doqquz tuğlu tudun" adlı terminlər vardı.

Tuğ türk və Altay xalq mədəniyyətində, həmçinin dövlət ənənəsində hökmranlıq simvoludur. Bayrağın təpəsindəki at quyruğu və ya kutuz adlandırılan yak öküzünün tükü də buna işarə sayılırdı. Sözün tog və ya tuk şəkilləri də olmuşdur. Monqollar tug şəklində işlədirdilər. Tuğ qut işarəsi olaraq istifadə edilmiş, bəzən müharibə və üsyan simvolu olaraq da özrünü görsətmişdir. Bayrağın üzərinə sonralar doqquz qollu bir dəyənək bağlanmış və uclarına doqquz müqəddəs heyvanın quyruğu asılmışdır. Sonralar isə bu quyruqların yerini rəngli qotazlar almışdır. Türklərdəki doqquz tuğ ənənəsi doqquz sayının müqəddəs-qutlu sayılmasıyla əlaqədar olub, doqquz planeti təmsil edirdi. Türk kosmoqonik düşüncəsinə görə, göy doqquz qatdan ibarətdir və türk dünya anlayışında yer üzü doqquz bölgəyə bölünmüşdür. Padşahların döyüş bayraqları Oğuz ənənəsinə görə, doqquz tuğdan ibarət idi. Bu isə özlüyündə dünya imperatorluğu simvoludur. Çingiz Xan xaqanlığını elan edəndə doqquz qollu ağ bir tuğ qaldırmağı əmr etmişdi.

Tuğun həm də işarə, əlamət mənaları var. Ehtimal olunur ki, tuğra (padşah möhürü) sözü də bu kökdən törəmişdi. Tog/Tok qədim türk dillərində toyuq mənasında da işlənmişdi və xaqanların hündür dirək üzərinə qaldırdıqları Qızıl Toyuq ilə əlaqədar olduğunu da ehtimal kimi səsləndirmək olar.

Qədimdə padşahların, vəzirlərin və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları tük və ya saçaq şəklində bəzəklərə də tuğ deyildiyi məlumdur. Tuğ qədim dövrlərdə at quyruğundan hazırlanmış qoşun bayrağı, ümumiyyətlə, bayraq mənasında işlədilmişdi.

Bu gün el ağzında "Baydağın qara gəlsin" kimi bir deyim az-çox işlədilməkdədir. Bizim tərəkəmə camaatının niyə "bayraq" deyil, sözü "baydaq" şəklində ifadə etməsi maraq doğurur. Bu, adi bir səs dəyişməsidirmi, yoxsa burada başqa bir hikmətmi var? Bunun sadəcə yerli tələffüz şəklimi, yoxsa qədim türk xalqlarında başqa bir deyim tərzimi olduğunu təsdiqləmək üçün əlimizdə tutarlı dəlillər olmasa da, müəyyən ehtimallar, müəyyən gümanlar irəli sürmək üçün əsaslarımız var.

Bayraq bəlkə elə "bay" və "dağ" sözlərindən yaranmış mürəkkəb bir sözdür? Və ya "bay" və "tuğ" sözlərinin birləşməsidir?

Bəlkə bayraq digər mənaları ilə yanaşı qədim insanların kosmoqonik düşüncələrini ifadə edən bir vasitə olmuşdu. Məsələn, bayraq dirəyi dünya ağacının, başqa adıyla həyat ağacının və ya yerlə göy üzünü birləşdirən uca dağ zirvəsinin simvolu ola bilməzdimi? Axı həyat ağacı əksər dünya xalqlarında qutlu –müqəddəs hesab edildiyi kimi, qədim türklərdə də bir çox mənaları ilə müqəddəs sayılmışdı. Ağaca inamın izləri bu gün də qalmaqdadır. Müxtəlif ağacların kəsilməsinin yasaqlanması, toyda şax bəzədilməsi, habelə bəzi ağaclara ocaq-pir kimi baxılması, onlara ziyarət edilməsi, hətta qurban kəsilməsi, eləcə də dilək edilərək onların budaqlarına rəngbərəng iplər bağlanması müasir dövrümüzdə də yaşayır. Qədim türk xalqlarında ağac kultunun varlığını müxtəlif qaynaqlar da təsdiq edir. "Kitabi-Dədə Qorqud" dastanlarında onun izləri ilə rastlaşa bilərik. Ağaca nəslin-soyun başlanğıcı, yaradıcısı kimi baxılmış, bir sıra hallarda o, nəslin, xalqın anası hesab edilmişdir. "Kitabi-Dədə Qorqud"da "anam qaba ağac" deyimi dediklərimizi təsdiqləmək üçün yetərli sayıla bilər.

Yeni il və ya Milad bayramında yolka bəzədilməsi də qədim adətlərlə səsləşir. Düzdür, yolka bəzədilməsi qədim adətlərin imitasiyası təsiri bağışlayır. Belə ki, süni yolkanı, eləcə də onun bəzədilməsində istifadə olunan süni əşyaları əski dönəmlərdə təbii məhsullar əvəz edirdi. Əski insanlar, elə qədim türklər də ağaca sitayiş etmiş, evlərinə ilin başlanğıcında canlı ağac budağı gətirmək kimi bir adətləri olmuşdu. Müxtəlif meyvələrlə, eləcə də əski əcdadlarımızın fallik təsəvvürlərini əks etdirən şirniyyatlarla bəzədilmiş ağacdan arzularını, diləklərini, əsasən də övlad istəklərini yerinə yetirməyi təmənna edirdilər və onların bu təmənnaları çox təbii olmaqla dövrün dünyagörüşü ilə səsləşirdi.

"Yolka" sözünün "Tanrıya aparan yol" mənası verməsi barədə elmi ədəbiyyatda rast gəldiyimiz bir fikri burada səsləndirmədən keçməyək.

Biz bayrağın qumaşdan və ya digər qiymətli parçalardan olan hissəsinə səmanın, göy üzünün simvolu kimi baxaraq bunu da qədim türk xalqlarının kosmoqonik düşüncəsi ilə bağlayırıq. Belə ki, türk kosmoqonik düşüncəsi dünyanı üst və alt, başqa sözlə, göy üzü və yeraltı hissələrinə bölür, insanın isə bu iki hissə arasında yaşadığını güman edirdi.

Fikrimizi Murad Adcının bayraq barədə qənaəti ilə yekunlaşdırmağı məqsədə uyğun sayırıq. Murad Adcı yazır: "Türklər tuğu nəslin ruhu, daha doğrusu ruhun yaşadığı yer hesab edirdilər. Buna görə də onlarda bayrağı endirmək rüsvayçılıq, itirmək isə nəslin məhvi sayılırdı".

**Afiq MUXTAROĞLU**

# BAKI XATİRƏLƏRİ: ÖZÜNÜ TANIMAYAN ÖZÜMÜZÜNKÜLƏR



30 il Bakıda yaşamış biri kimi yaxın dünənlə bu günü müqayisə etmək mənim üçün çox asandır. Son 5 ildə dəyişən nə varsa müqayisə edərkən təhlil edəndə maraqlı təzadlar məni məndən alır. Yenə də gördüklərimin çərçivəsiylə təhlilimi davam etdirim.

Borçalıda keçən uşaqlığımın xatirələri sonrakı ömrümün bütün qaynarlıqlarından müqəddəsdir mənim üçün. O gözəlliklər içində bir xatirə də vardı – saçımı 40 hörük hörüb, əlimə kartondan qaval alıb "Qaragöz boy-boy" oxuyub rəqs etməyim:

*Gördüm iki pəri gələr,*
*Gələr sallana-sallana.*
*Aşiqinin könlün alıb,*
*Gələr nazlana-nazlana.*

Sonralar bildim ki, bu özbək mahnısı və rəqsi imiş, anamın mənə tikdiyi zolaqlı döşək üzündən don da özbəklərin milli geyimi idi. Sonra həvəskarcasına bir gözəl Azərbaycan milli rəqsi öyrəndim və anamdan xahiş etdim ki, mənə televizordakı milli paltardan tiksin. Hətta araqçın da istədim. Anam dedi ki, onu tikmək çətindir, satışda da elə paltar olmur, Bakıya gedəndə tikdirərik... Beləcə arzum ürəyimdə qaldı. Mən elə düşünürdüm ki, yəqin Azərbaycanda hamı əziz libası kimi milli paltarları əziz günlərdə geyinir. Nənələrimizin kələğayısı kimi... Çünki tanıdığım özbək, türkmən ailələrində bunu görmüşdüm.

İlk dəfə Bakıya gedəndə milli mühitdə böyüməyim bir yana, həm də qəribçilik sindromu ilə hər kəsdə kələğayı, papaq, təmiz ana dilində danışıq, bir sözlə, millilik axtarırdım. Axı bura AZƏRBAYCAN idi, yad diyarlardan fərqli olmalı idi. Düzdür, onda sovetlərin son zamanları idi, anamın atama dediklərinə görə, Bakı əvvəllər daha çox "dirisiylə rus, ölüsüylə ərəbcə" imiş. Bunu sonralar başa düşəcəkdim.

Anam deyirdi, tələbə vaxtı biz Azərbaycan dilində danışmazdıq ki, bizə kəndçi kimi baxmasınlar. Hətta daha xoş olmayan bir ifadə vardı ki, onu "russkoyazıçnılar" işlədərdi, çünki güya onlar özlərini elitar hesab edirdilər. Anamın danışığı ilə mən elə gərgin olurdum ki. Axı mənim xəyalımda yaratdığım bir milli vətən vardı, orada hamı anasına ANA, atasına ATA deyərdi, orada NOVRUZ bizdəkindən maraqlı olardı, orada da hamı ana dilində danışardı, orada qərib olmazdın, orada hər yan vətən idi, orada kimsə sənə "gəlmə" deməzdi, orada "bura mənim vətənimdir" kəlməsini ürəklə deyərdin...

Bəli, bu o vaxt idi ki, Azadlıq hərəkatı hamını milli etməyə çalışmışdı, amma anamın tələbəliyindəki şəhər adamları xeyli fərqlənmişdi. Anam deyirdi ki, zamanla dünənimizə dönəcəyik, kimliyimizi dərk edəcəyik. Anam bu dəyişikliklərə sevinsə də, mən xəyalımdakı mənəvi vətəni görmək istəyirdim. Düzdür, o vaxt bu təhlilləri edəcək yaşda, təcrübədə deyildim. Mən hələ də o milli geyimi geyinib İçəri şəhərdə addımlamaq istəyərək Sehirli xalatı axtarmaq xəyalında idim. Bax beləcə gün günə calandı. Mən də böyüdüm, həyata baxışım da. Hətta təhlil etmək üçün müqayisələrim də var idi deyə millət olaraq Azərbaycanın, xüsusən də Bakının Tiflisdən və gürcü xalqından bu sahədə geridə olması məni çox məyus edirdi.

Uşaqlıqda mənim komplekslərim var idi – niyə bizim əlifbamız yoxdur, niyə soyadımız rus şəkilçilidir, niyə gürcülər başına fəs qoyur, biz araqçın qoymuruq və s.

Bir aralar milli dirçəliş riyazi hiperpola kimi artan istiqamətdə getdi. Milli adlar, övladlarını ana dilində oxutmaq, hətta soyad sonluqlarını kütləvi surətdə hər doğulan uşağa yeni şəkilçi ilə yazdırırdılar. 90-ların sonuna doğru riyazi əyri sürətlə enməyə başladı. Birdən şəhər dəyişdi. Yenidən "ruskoyazıçnı intelligentlər" olamğa doğru irəliləyiş artdı. B.Vahabzadənin məşhur şeirinin motivləri hiss edilməyə başlandı. Bakıda insanların parlaq zər-zibası, günbəgün artan göydələnlər, hətta Bakı anfiteatrının itməsi və hər Tiflisə gedib-gələndə gördüyüm qorunan arxitektura, sadə geyim, dəbdəbədən uzaq rahat həyat tərzi məni qısqandırırdı. Övladlarım məktəbə gedəndə evimizdən 15 dəqiqəlik məsafədə olan rus bölməsinə yox, məhz ana dilində təhsil alması üçün digər məktəbə yazdırdım. Ona görə ki, mənim xəyallarımın mənəvi paytaxtı anamın kədərlə xatırladığı Sovet Bakısına dönürdü. Hətta deyəsən bunu özləri də hiss etmirdi, çünki həmin dövrü həsrətlə xatırlayan məşhurlar da vardı, internet fenomenləri da. Bəli, sən o sən deyilsən səndən xəbərsiz.

Beş il əvvəl Gürcüstana gəldik. Uşaqlarım təhsilini burada öz ana dillərində davam etdirdilər. Məlum səbəblərdən Azərbaycanla virtual əlaqəm vardı. Yeniliklərin içində olmaq bir başqa...

Kənardan baxanda, qərib olanda vətən hissi o qədər müqəddəsdir ki, onu ifadə etməyə qələmim zəif olmasa da, təsvirə çətinlik çəkirəm. Şəhər də doğma idi, adamlar da. 25 gün qonağı oldum ömrümün 30 ilini yaşadığım şəhərdə. Etiraf etmək istəmədiyim bir həqiqət məni çox sıxdı. Mənə elə gəldi ki, Borçalıda daha çox millilik hiss edirdim, nəinki Bakıda. Yoxsa bu şəhər modern oldu, mən anlamıram. Unversitetdə oldum, ictimai, iaşə, səhiyyə, hərbi sahələrdə oldum, bəzilərində şəxsi işimlə əlaqədar, bəzilərində dostlarla, qohumlarla görüşdüm... Guya "inkişaf etmişlər – sosyetilər" rus dilində danışırdılar, bu 15 il əvvəlki axının nəticəsi idi və rayonlularla şəhərlilər arasındakı uçurumu hiss etdim. Anamın təəssüflə danışdığı Sovet Bakısını xatırladım, hansı ki, bəzi "sosyetilər" həsrətlə yad edirlər.

H.Əliyevin bir gözəl deyimini xatırladım: Siz gənclər Puşkini rusca oxuyun, Şekspiri ingiliscə, amma Füzulini Azərbaycan dilində. Hər yerə şüarlar vuran məmurlar, bilmirəm, bu ata sözünü niyə şüar etmirlər. Yəqin ona görə ki, heç Səməd Vurğunu da oxumayıblar.

Düşünürəm ki, kiməsə oxşamaqdansa əvvəl özün ol! Vallah, hə.

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# “ÖZÜMLƏ MÜSAHİBƏ” RUBRİKASININ QONAĞI “ERA TEATRI”NIN BƏDİİ RƏHBƏRİ, REJİSSOR ANAR RAFİQOĞLUDUR



**– Sizi bir az yaxından tanıyaq...**

– Mən Anar Rafiqoğlu (Hümbətov) 1992-ci ilin 19 avqust tarixində Rustavi şəhərində dünyaya gəlmişəm. Əslən Bolnisi rayonunun Darvaz kəndindənəm. Uşaqlığımın bir hissəsi Bakı şəhərində keçib. Sonra yenidən Gürcüstana qayıtmışıq. Ali təhsilimi də elə burada, Şota Rustaveli adına Gürcüstan Dövlət Teatr və Kino Universitetində almışam.

**– Tbilisi Dövlət Azərbaycan Dram teatrına yolunuz necə düşdü?**

– Tamamən təsadüf nəticəsində. O vaxtlar teatrda rejissor olan Namiq Hacıyev bizim ailəvi dostumuzdur. Bir gün bizə qonaq gəlmişdi. Mən onda məktəbli idim. Süfrədə etdiyim müxtəlif parodiyalar, zarafatlar Namiq Hacıyevin diqqətini çəkdi. Mənə gələcəkdə teatrda rol verəcəyini dedi. Bir müddət sonra isə, sağ olsun, məni teatra dəvət etdi. 2010-cu ilin sonlarında teatrda ilk məşqlərimə başladım, 2011-ci ildə Nodar Dumbadzenin “Ağ bayraqlar” tamaşası ilə debüt etdim. Beləcə 2011-dən 2014-ə qədər “Ağ bayraqlar”, “Tülkü, tülkü, tünbəki”, “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, “Divarların o üzü” tamaşaları ilə səhnə təcrübəsi yaşadım, müxtəlif festival və qastrollarda da yer aldım.

İlk səhnəyə çıxdığım dövrlərdə 12-ci sinif şagirdi idim. Hərdən məktəbdən icazə alırdım ki, mən teatra gedirəm. Hiss edirdim ki, bəzi müəllimlərim inanmırlar, yəqin düşünürdülər ki, məktəblinin nə işi var Dövlət Dram teatrında. Sonra səhnədə gördükləri zaman qürur duydular, sağ olsunlar. Mənim üçün o illər bir röya kimi idi.

**– Bəs sonra?**

– Sonra təxminən 3 il Azərbaycan Dram teatrı ilə, demək olar ki, əlaqəm kəsildi. Buna küskünlük də deyə bilərik. Teatr nə zaman aktyor qıtlığı yaşasa, nə vaxt heyətdə çatışmazlıq olsa, ilk ağla mən gəlirdim ki, Anarı çağıraq, o yox deməz. Əlbəttə, yox demirdim, çünki bu mənim teatra olan sevgimdən irəli gəlirdi. Lakin sevgi qarşılıqsız olanda, bir müddət sonra hər kəs öz yolu ilə gedir. Mənim ən böyük arzum o teatrın rəsmi aktyoru olmaq idi. Rəhbərlik isə hər dəfəsində müxtəlif bəhanələr gətirərək, mənim bu arzumu ürəyimdə qoyurdu. O səbəbdən mən də öz yolumu seçdim: “Stand-up komediya!..”

**– “Stand-up komediya” ölkəmizdə o qədər də məşhur janr deyil. Hətta azərbaycanlılar arasında bu janrda ilk çıxışı sizin etdiyiniz bilinir. Hardan ağlınıza gəldi belə bir şey?**

– Çarəsizlikdən (gülür). İllərlə oturub gözləyə bilməzdim ki, nə vaxtsa Azərbaycan Dram teatrı məni rəsmi olaraq işə götürəcək, ya da ildə bir dəfə hansısa tamaşaya qonaq aktyor kimi dəvət edəcək. Mən prinsipial bir insanam. Ona görə də yoluma baryer qoyaraq məni dayandırmaq qeyri-mümkündür. İstənilən baryeri aşmaq üçün başqa çıxış yolları mümkündür. Səhnəyə çıxmaq istəyirdim. Alqışlara aşiq idim və alqışlarla yaşayırdım. Bunun üçün də səhnədən uzaq qalmamaq naminə başqa, yeni bir mərhələyə keçdim. Düşünürəm ki, uğurlu da alındı. Bu gün aradan illər keçməsinə rəğmən hələ də “stand-up” çıxışlarımda etdiyim zarafatları xatırlayan və israrlı bir şəkildə yenidən bu formatı davam etdirməyimi istəyənlər var. Sevindiricidir, çünki bu, nələrisə doğru etdiyimizi, ən azından edə bildiyimizi göstərir.

**– Bəs niyə davam etdirmədiniz?**

– Mərhələ, mərhələ, mərhələ... “Stand-up” mənim üçün bir mərhələ idi. Çünki o dövrdə tez-tez səhnəyə çıxmaq istəyirdim. İndi isə başqa öhdəliklərim, fərqli hədəflərim var. Həm də bu işə başladıqdan bir müddət sonra insanların məni tədbirlərdə, cəmiyyətdə “stand up-çı” kimi təqdim etmələri elə də xoşuma gəlmirdi. Düşünün, illərlə mədəniyyət, incəsənət sahəsində təhsil alırsınız, axırda da hər yerdə səni “şoumen” kimi təqdim edirlər. Mən bu etiket üzərimdə yapışıqlı qalmasın deyə davam etmədim. Davam etsəydim, bu gün əminəm, daha çox populyarlığa, hətta pula sahib olardım. Amma onda da adi bir “şoumen” kimi xatirələrdə qalacaqdım.

**– Tbilisi Azərbaycan Dövlət Dram Teatrı ilə yollarınız yenidən necə birləşdi?**

– Teatrda rəhbər dəyişikliyi baş verdi. Xəbər saytları yazdı ki, Azərbaycan teatrına yeni bədii rəhbər təyin olunub. Kimliyini araşdırmağa başladım. Qarşıma mükəmməl nəticələr çıxdı. Varlam Nikoladze... Türkiyədə sözün əsl mənasında yeni bir teatr dalğası yaratmış, “Dokuz Eylül Universitetində” rəhbəri olduğu dram və kino aktyorluğu bölməsində bir çox məşhur aktyorlara dərs demiş və yetişdirmiş birisi. Onların arasında Engin Altan Düzyatan, Rıza Kocaoğlu, Timur Acar, Sarp Apak, Onur Buldu, Uğur Bilgin kimi ulduzlar yer alırdı. Öz-özümə dedim: mən bu adamla mütləq tanış olmalıyam. Azərbaycan teatrına “xeyirli olsun” ziyarətinə getdim. Bir xeyli söhbət etdik. Sonda bir neçə gün sonra baş tutacaq “stand-up” tamaşama dəvətnamə verdim. Açığı desəm, gələcəyini gözləmirdim. Tamaşa günü, başlama saatına 15-20 dəqiqə qalmış telefonuma zəng gəldi ki, mən artıq teatrın qarşısındayam. İçimdə xüsusi bir həyəcan var idi. Həmin günü xoşbəxtlikdən sözün əsl mənasında coşdum. Tamaşa bitdikdən sonra gəlib məni təbrik elədi və dedi ki, ən qısa müddətdə Azərbaycan Teatrına gəl, səninlə söhbətim olacaq. Getdim və mənə dedi ki, sənədlərini hazırla, yeni büdcə təsdiq olunan kimi səni rəsmi aktyor olaraq işə götürəcəm. Həqiqətən də dediyini etdi. Və mən 2017-ci ildə, illərlə arzusunda olduğum, xəyalını qurduğum işə, rəsmən aktyorluq statusuna sahib oldum. Varlam Nikoladze məni sadəcə işə götürməklə qalmadı, eyni zamanda dərhal bir neçə tamaşada önəmli rollar verdi. Jan Koktonun “Fəryad edənin səsi”, Dario Fonun “Azad ailə” tamaşalarında yer aldım. Türkiyənin Adana şəhərində teatr festivalına qatıldıq. Hər şey əla gedirdi ki, “boom!!!” Yenə, yenidən Tbilisi Dövlət Azərbaycan Dram teatrında ənənəvi xaoslar baş verdi. Düzünü desək, mən artıq Azərbaycan Teatrının lənətli olduğunu düşünürəm. Çünki burada işlər nə vaxt yaxşıya doğru getməyə başlasa, anidən 180 dərəcə pisə doğru dəyişir. Hərçənd, ustad Varlam Nikoladzedən hər nə qədər ağız dolusu danışsam da, ədalət naminə deyə bilərəm ki, onun da idarəçiliyinə yönəlik haqlı iradlar var idi və o, bunu heç cür qəbul etmək istəmirdi. Lakin üzülürəm. Varlam Nikoladzenin idarəçiliyində müəyyən nöqsanlar olsa da, o, böyük bir sənətkar, önəmli bir teatr adamı idi. İndi isə Azərbaycan Teatrında nə sənət qalıb, nə də peşəkarlıq. İdarəçilikdən isə bəhs etməyə gərək belə yoxdur. Beş qoyun versən idarə edə bilməyəcək “adam”dan, 100 ildən çox tarixi olan teatrı idarə etməsini gözləyirlər. Daha doğrusu, gözləmirlər, elə onlara da, məncə, belə sərf edir...

**– “Era Teatrı”nın yaranması?**

– Yuxarıda yazdıqlarımdan kifayət qədər anlaşılmırmı yaranma səbəbi? “Era Teatrı” bir etiraz teatrıdır, alternativ teatrdır, gənclər teatrıdır və ən əsası, xalqın teatrıdır! 8 ildən çoxdur ki, fəaliyyət göstəririk. Və bizə gəlib-gedən gənclərin sayı Tbilisi Azərbaycan Teatrından qat-qat daha çoxdur. Bu 8 il ərzində bizdən ayrılanlar olub, fikir ayrılığı yaşadıqlarımız olub, bizdən inciyənlər, hətta bizim də incidiklərimiz olub, amma bir dəfə görübsünüzmü məsələ hardasa mübahisəyə dönüşsün və xaos, intriqa həddinə çatsın? Çünki biz gələn gənclərə ilk öncə onu deyirik ki, biz bir ailəyik. Bizim teatr binamız, büdcəmiz, geniş avadanlıqlarımız və şəraitimiz olmaya bilər. Bizim fərqimiz və az-az da olsa inkişaf etməmizin ən böyük səbəbi ailə qavramıdır. O ailə qavramı, hansı ki, Tbilisi Dövlət Azərbaycan Dram teatrında yoxdur!

**– Aydındır. “Stand up” və dram teatrındakı aktyorluq təcrübəndən danışdın. Bəs rejissorluq? Orada işlər necədir?**

– Açığı deyim, mən özümü hələ rejissor olaraq görmürəm. Rejissorluğa namizəd deyə bilərik. Çünki mənə görə, rejissorluğun açarı Vilyam Şekspirdədir. Əgər bir şəxs Şekspirin əsərlərinə quruluş verməyi bacarırsa, bu onun diplomu, möhürüdür ki, o şəxs artıq rejissordur. Mənim isə nisbətən kiçik heyət, məhdud imkanlarla quruluş verdiyim 8 tamaşa olub, hazırda 9-cunun üzərində işləyirəm. Bunlardan 6-sının eyni zamanda müəllifi də özüməm. Lakin yenə də hesab edirəm ki, mən hələ yolun başındayam. Qeyd etdiyim bütün bu nüanslara rəğmən, deyə bilərəm ki, mən rejissorluqda özümü tapdım. Bu işi görməkdən zövq alıram, öyrənmə prosesindəyəm və daima mütaliə edirəm. Önəmli rejissorların kitablarını, məqalələrini, müsahibələrini oxuyuram. Onlardan nümunə götürməyə çalışıram, çünki bir zamanlar onlar da mənim kimi idi...

**– Sonda nə qeyd etmək istərdiniz?**

– Sonda bu fürsəti verdikləri üçün “Yeni yol” qəzetinə, sualları hazırladığım üçün özümə təşəkkür edirəm. Sənət adamları olaraq bizim də nələrisə anlatmağa ehtiyacımız var. Lakin, təəssüf ki, siyasətdən, kriminaldan, şou-biznes xəbərlərindən fürsət tapıb bizə yer vermirlər. Canları sağ olsun...

***Qeyd edək ki, “Özümlə müsahibə” rubrikasında sual verən də, cavab verən də eyni adam olur. Sualları müsahib özü seçir. Müsahibədə heç bir senzuraya yol verilmir və olduğu kimi dərc edilir.***

# NAHAQDAN TÖKÜLƏN QAN

## ALEKSANDRE ORBELİANİ



Ölkəmizdə kim bilir nə qədər hadisə baş verib, böyük, yaxud kiçik. Düşünürəm ki, ölkəmizdə elə bir kiçik yer yoxdur ki, əcdadlarımız Vətən uğrunda qan tökməsinlər. Bu haqda deyiləcək çox şey var, amma sözümüzü davam etdirməmək üçün bununla kifayətlənək və bundan sonra bu nahaqdan tökülən qan əhvalatını nəql edək.

Bir varlı-hallı gürcünün evində üç gənc qadın böyüyürdü. Dini və dünyəvi təhsillərini başa vurdular, tikişdə əl işlərini inkişaf etdirdilər, sakit, dinc bir davranışa sahib oldular, böyüklərə hörmət etməyin lazım olduğunu dərk etdilər. Valideynlərinə itaət etməyi beyinlərinə qoydular. Qadağan olunmuş həyat tərzini mənimsədilər. Bərabər şəxslərə uyğun ədəb-ərkanı öyrəndilər. Çarın sarayında söhbətin olduğu zaman gözəl söhbətlər də edirdilər. Bir sözlə, layiqli bir xislət qazanıb, hər cür yaxşılıq əxlaqına sahib oldular. Budur, gürcülərin köhnə təlim-tərbiyəsi.

Bu qadınların adları belə idi: Anna, Barbare və Marta. Üçü də gözəl, üçü də hündür, üçü də qara gözlü, qara qaşlı, üçü də dolu bədənli, lakin üzdən bir-birlərinə oxşamırdılar. Anna o evin tavadının arvadı idi və digər ikisi isə onun aznaurunun. Belə ki, onları bu tavadın arvadı özünün qızlarına olan sevgisi ilə birgə bacı məhəbbəti ilə tərbiyə edirdi.

Bu qadınların mürəbbisi qocalmış dinc sifətə malik və tamamilə ağ saçlı yaşlı Periya (adı) idi. Bu qocadan vaxtı ilə kəndin xəracını tələb ediblər, o da ürəyini rahat saxlayaraq verib.

Həmin on dörd, on beş yaşlı qadınlar, adətə görə, gənc olduqları üçün zərif barmaqları ilə parıldayan qara zülflərini, uzun saçlarını açmasalar da, ürəkləri parçalayan ağılarının sözləri ilə heyrətdən ağlayaraq onlara əmək qoyanın cəsədinə göz yaşlarını tökürdülər. Onları görənlərin qəlbi sızlayırdı və uzaqdan için-için ağlayırdılar.

Onun dəfnindən sonra, o gecə o qadınlar öz otaqlarında narahatlıqla oturdular ki, bu zaman heç kim yox idi və bunu deyirdilər:

Anna: – Allah sevdiyimiz Periyaya əbədi rahatlıq versin.

Barbare: – Oh, həqiqətən.

Marta: – Oh, nə yaxşı kəs idi. Allah İbrahimin qoynunda rahat etsin.

Anna: – Mənim əziz bacılarım, onun dərsini yaxşı xatırlayırıq: Bu dünya Allah tərəfindən nəciblik üçün qurulub, amma birtəhər də şərlə əvəz olunub; Bunun üçün, onun təliminə görə, indiki halımızdan dünyadan uzaqlaşıb Allaha üz tutaq.

Marta: – Bəli, çox yaxşı olardı, mənim həyatım bacılar.

Barbare: – Doğrudan da, əla olardı, mənim təsəlliverici bacılarım, amma hara və hansı yerə ayaq basaq?

Anna: – Tiflis şəhəri yaxınlığında kilsə ki var, Mtasmindanın ortasında, dağda, Müqəddəs Davidin kilsəsi, ora gedək; Həmin kilsənin keşişi və arvadı – hər ikisi həddindən artıq nəcib insanlardır. Əminəm ki, o zavallı övladı olmayanlar bizi yaxşı qəbil edəcəklər.

Marta: – Şəhərdə çox olmuşuq. Keçən il də sənin atan-anan və biz də orada deyildikmi? Bir dəfə biz üçümüz Müqəddəs David kilsəsinə ibadət etmək üçün getdik. Onda ağlıma belə bir fikir gəldi ki, bu da bizim niyyətimizdir.

Barbare: – Onsuz da ora gedərik, bəs o keşiş bizi ifşa etsə?

Anna: – Nə tanıyır biz kimik? Əgər o bizi tanımaq istəsə, özünü kahin üçün qurban verəcək və onun da çox xoşuna gəlməlidir.

Şirin söhbətdən və şam yeməyindən sonra qapıda ayaq səsləri kəsiləndə otaqda heç kim yox idi. Bu zaman Allahın adını çəkdilər, üçü də cəsarətlə ayağa qalxdılar, çörəyi və pendiri dəsmala bükdülər, qapılara baxdılar və gördülər ki, hamı yatır. Bundan başqa on altı günlük ay açıq səmadan boylanırdı və sanki günahsızlara yolu yaxşı göstərmək üçün açıq şəkildə işıqlandırırdı.

Göyərçinlər yuvadan uçaraq səltənət qapılarına tərəf qaçdılar. Onlar nə yırtıcı quşlardan, nə də yırtıcı heyvanlardan qorxurdular.

Evin həyətini dolandılar, kəndin iki hasarından keçdilər və qırmızı başmaqlarla bəzədilmiş o balaca ayaqları ilə cəsarətlə böyük qara yola çıxdıla. O qədər sürətlə hərəkət edirdilər ki, hətta yaxşı çaparlar da onlarla ayaqlaşa bilməzdilər. O yaxşı idi ki, onlar şəhərə gedən yolu yaxşı bilirdilər və heç bir yolçuya da rast gəlmirdilər.

Sübh çağı onlar Mtsxeta körpüsünə çatdılar. Onlar qorxularından artıq qara yol ilə getməyə cəsarət etmirdilər və elə orada Kür çayı üzərindəki körpünün yaxınlığındakı hündür dağa çıxmağa başladılar. Hələ yaxşı işıqlanana kimi dağın başına çıxdılar və oradan böyük məmnunluqla şəhərin dağlarını görürdülər. İndi onlar meşənin kənarı ilə dağdan-dağa gəzir, şəhəri heç vaxt gözdən qaçırmırdılar. Axşam üstü Diqomi vadisinə, su kənarına çatdılar. Bu zaman ay da doğdu.

Bir qədər suyun kənarında oturdular, bir az dincəldilər, çörək yedilər, sonra da geri qayıtmağa başladılar. İndi onlar düz yolda idilər, gecəyarısı olmamış Mtasmindaya qalxdılar. Onlar Müqəddəs David kilsəsində ibadət etdilər, sonra oradan qayıdıb keşişin evinin qapısını döydülər.

Keşiş İosif və onun həyat yoldaşı Anastasiya hələ yatmamışdılar, əllərində dua kitabı tutaraq hərarətlə dua edirdilər. Qapının vaxtsız döyülməsi heç birinə xoş gəlmədi, amma dərhal keşiş gəldi, qapıları açdı və yanan müqəddəs şam ilə qapının ağzını işıqlandırdı, baxdı, üçünü də tanıdı və təəccüblə soruşdu:

– Anna, nə olub ki, vaxtsız gəlmisən?

Qeyd edək ki, qadınlar çox sarsılmış olsalar da, Anna onlara bütün hisslərini qətiyyətlə danışdı. Çox arıq və gözəl olan keşiş və onun gözəl arvadı çox razı olsalar da, amma yenə qorxdular.

Təbii ki, həmin gecə üçünə də böyük ehtiram göstərildi. Ertəsi gün keşiş katolikosun yanına erkən getdi və hər şeyi ona bildirdi. Biri qırx, digəri isə əlli yaşında olan iki kilsənin diyakonları *(Diyakonlar – kilsə xidmətçisi – Tərcüməçi)* onlarla qaldı. Bu diyakonlar, bəli, kilsənin böyük xidmətçiləri, kilsə və keşişin böyük itaətkarları idilər. Qırx yaşında olanın adı Petre idi, əlli yaşında olanın isə Tevdore.

Ən xeyirxah katolikos keşişdən eşidəndə çox xoşuna gəldi, amma Annanın valideynləri o qadınları yuxarı tərəfdə çox axtardılar. Nəhayət, nə baş verdiyini öyrəndilər və Kartli çarına namə yazdılar. Bununla iki-üç gün keçmədi ki, çar Annanın yanına gəldi. Həmin vaxt bu qadınlar kilsədə anbionun *(Kilsədə duaların oxunduğu minbərsayağı hündür yer – Tərcüməçi)* qarşısında diz çökərək Allaha dualar oxuyurdular.

Çar, bəli, Annanın yaxın qohumu idi. O qadınlar bir-birlərindən ayrılmadıqlarına görə o, üçünü də çıxarmaq və Annanı ana və atasına qaytarmaq istəyirdi. Çarın əmri ilə hər şeyi böyük təhlükə olaraq bildirirdilər və qəti bir qərarla bir-birindən ayrılmadan orada məskunlaşmalıdılar. Çar öz istəyi ilə onları çıxara bilmədi, ona görə də onlar Allahın övladları kimi Mtasmindada məskunlaşdılar.

Bir ay keçməmiş şəhərdə belə bir xəbər yayıldı: "Sabah üç qadın kahin təyin olunacaq". Bundan sonra bütün şəhərin əhalisi nəsə xoş fikirlərlə tərpəndilər: Biri nə deyirdi, digəri nə. O biri gün bir çox qadın və kişi kahinlərin suya çəkilməsini görmək üçün Sioni Məryəm ana kilsəsinə toplaşdılar. Qısa müddətdən sonra həmin qadınları gətirdilər və katolikosun əli ilə kahin olaraq suya çəkildilər. Kahinlərin suya çəkilməsi zamanı gələndə katolikos öz keşişləri ilə ambiona təşrif buyuranda kahinlər bura gəldilər, onun qarşısında diz çökdülər. Katolikos da onları qara örtüklə bürüdü. İbadət edənlər onun ardınca gedərək kilsə nəğmələri ilə Allaha şükürlər edirdilər. Anbiondan da katolikos və onun keşişləri hay verirdilər – bəzisi deyimlə, bəzisi hay verməklə, bəzisi pəsdən oxumaqla, bəziləri isə gözəl şəkildə bəstələnmiş kilsə nəğməsini çox gözəl ifa etməklə.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN
2025-Cİ İL
№ 11 (228)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA YAŞIL ENERJİ OBYEKTLƏRİNİN TİKİNTİSİ PLANLAŞDIRILIR



Gürcüstanda elektrik istehlakı ildən-ilə artır. Artan tələbatı ödəmək üçün ölkədə yaşıl enerji obyektlərinin tikintisi planlaşdırılır. Bu barədə Gürcüstanın Elektrik Bazarı Operatorunun (ESCO) saytında məlumat verilir.

Mütəxəssislərin fikrincə, 2030-cu ilə qədər ölkə ciddi enerji çatışmazlığı ilə üzləşə bilər, çünki o vaxta qədər elektrik enerjisi istehlakı təxminən 73 faiz artaraq 22 milyard kilovat-saata çatacaq.

Qonşu ölkələrdən enerji asılılığını azaltmaq üçün hakimiyyət yerli bərpa olunan mənbələrdən maksimum istifadə etməyə çalışır. Operatorun məlumatına görə, hazırda ölkədə Qori şəhəri (Şərqi Gürcüstan) yaxınlığındakı Kartli külək stansiyası 2016-cı ildən fəaliyyət göstərir, onun gücü 20 MVt-dır. Kartli külək stansiyası 2025-ci ilin yanvar-aprel aylarında 25,54 milyon kilovat-saat elektrik enerjisi istehsal edib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 6,9 faiz azdır.

Alternativ enerji mənbələrinə keçid Gürcüstan hökuməti üçün mühüm istiqamətdir. Ölkə günəş və külək enerjisinin enerji sisteminə inteqrasiyasını artırmağı planlaşdırır. Elektrik istehlakının illik artımı ilə əlaqədar ekspertlər hesab edirlər ki, Gürcüstan 2030-cu ilə qədər ciddi enerji çatışmazlığı ilə üzləşə bilər. Bununla əlaqədar ölkədə növbəti üç il ərzində ümumi gücü 1,5 min meqavat olan elektrik stansiyalarının tikintisinə hərrac yolu ilə yardım daxil olmaqla bərpa olunan enerjinin dəstəklənməsi sxemi hazırlanıb.

Hökumət sənayenin inkişafını sürətləndirməyi planlaşdırır, bunun üçün yaxın iki-üç ildə 3-4 milyard dollar investisiya cəlb olunacaq.

Bərpa olunan enerjinin inkişafı sxemi CFD müqaviləsi adlanan qiymətlər arasındakı fərqin razılaşdırılması ilə elektrik stansiyasının istismara verilməsindən sonra 15 il ərzində enerji layihələrinə dövlət dəstəyini nəzərdə tutur.

Məlumat üçün qeyd edək ki, Gürcüstanda elektrik enerjisi istehlakı 2025-ci ilin yanvar-aprel aylarında 2024-cü ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz artaraq 4,9 milyard kilovat-saat təşkil edib. Dörd ayda 3,9 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bu da 2024-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 9,8 faiz azdır.

İstehsal olunan enerjinin böyük hissəsi su elektrik stansiyalarının payına düşür – 2,9 milyard kilovat-saat. İstilik elektrik stansiyalarında 965,63 milyard kilovat-saat enerji istehsal edilib.

## GÜRCÜSTANDA ÖLÜM HALLARI ARTIB




Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, ölkədə 2024-cü ildə ölüm səviyyəsi əvvəlki illə müqayisədə 2,8 faiz artaraq 43 min 917 nəfər təşkil edib.

Məlumatda bildirilir ki, ölümün əsas səbəbi, əvvəlki illərdə olduğu kimi, qan dövranı sistemində yaranan problemlər (35,9 %) və bədxassəli şişlər (9,2 %) ilə əlaqəli xəstəliklər olaraq qalır.

Milli Statistika Xidmətinin məlumatına görə, beş yaşadək uşaqlar arasında ölüm hallarının əsas səbəbi perinatal dövrdə aşkar edilən pozğunluqlardır. 5-39 yaş arasında xəsarətlər, zəhərlənmələr, xarici təsirlərin müxtəlif nəticələri üstünlük təşkil edir. Çünki bu yaş kateqoriyasındakı insanlar arasında qəzaların baş vermə ehtimalı daha yüksəkdir. 40 yaşdan yuxarı qan dövranı sistemi xəstəlikləri və şişlər üstünlük təşkil edir.

## AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİNİN II QURULTAYI KEÇİRİLİB



Tbilisidə Azərbaycandilli Məktəblərin Müəllimlərinin II Qurultayı keçirilib. Qurultayın əsas məqsədi azərbaycandilli məktəblərdə mövcud problemləri müzakirə etmək, dövlət qurumlarının diqqətini aktual məsələlərə yönəltmək, fikir mübadiləsi aparmaq və perspektivləri müəyyənləşdirmək olub.

Qurultay çərçivəsində təşkil olunan panel müzakirələrdə iştirakçılar kadr çatışmazlığı, ana dili və dövlət dili fənlərinin tədrisi, ikidilli (bilinqual) təhsil sistemi, inklüziv təhsil, dərsliklərdəki tərcümə və məzmunla bağlı problemlər, həmçinin infrastruktur məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

Müzakirələr zamanı azərbaycandilli məktəblərdə ikidilli kadr çatışmazlığının davam etdiyi, mövcud resurslarda tərcümə xətalarının tədris prosesinə mənfi təsir göstərdiyi vurğulanıb.

Qurultayda azərbaycandilli məktəblərdə çalışan müəllimlərlə yanaşı, Gürcüstanın dövlət qurumlarının, diplomatik nümayəndəliklərin və təhsil sahəsində fəaliyyət göstərən müxtəlif təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinə tabe olan Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin qeyri-gürcüdilli məktəblərə dəstək proqramının meneceri Nino Berikaşvili də qatılıb.

Qeyd edək ki, Azərbaycandilli Məktəblərin Müəllimlərinin I Qurultayı 2023-cü ilin iyun ayında keçirilib.

## MARNEULİNİN KEŞƏLİ KƏNDİNDƏ “KÜR TƏDRİS VƏ İNKİŞAF MƏRKƏZİ” YARADILIB



Marneuli rayonunun Keşəli kəndində “Kür Tədris və İnkişaf Mərkəzi” yaradılıb. Mərkəzin təsisçisi Savalan Osmanlıdır.

***“Kür çayının sahilində yerləşən kəndlərin elmi, mədəni, mənəvi və sosial inkişafı üçün qurulan bu mərkəz adı kimi axıb, gələcək nəsillərə həyat verməyi hədəfləyir. Elmə sahib olan yeni nəslin yetişməsi qürur yerimizin olması deməkdir. Biz bu yola geri dönməmək üçün çıxmışıq. Yolumuz aydındır: yeni nəslin daha savadlı, düşüncəli və vətənpərvər yetişməsi. Bu yol, sadəcə, bir tədris yolu deyil. Bu, millətin gələcəyini işıqlandırmaq üçün atılan cəsarətli bir addımdır”***, – deyə Savalan Osmanlı bildirib.

Onun sözlərinə görə, mərkəzin əsas məqsədi yalnız dərs keçmək deyil, həm də gənc və yeniyetmələrə insanlıq dəyərlərini, Vətən sevgisini, öz milli kimliyini və dilini sevdirməkdir. Mərkəzdə həmçinin saz kursları da fəaliyyət göstərir.

***“Müəllimlərin missiyası dövlətimizin və xalqımızın rifahı naminə düşünən, yaşatmağı bacaran yeni nəsil yetişdirməkdir. Mərkəzdə müəllimlər yalnız dərs öyrətmirlər, eyni zamanda, gənc və yeniyetmə soydaşlarımıza motivasiya verir, onları gələcəyə ruhlandırırlar. Dərslərdən əlavə əyləncəli dərs metodları, komanda fəaliyyətləri və yeni yaradılmış “Kür” Futbol Komandası da bunun bariz nümunəsidir”***, – mərkəzin təsisçisi deyib.

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:**
Azər MUSAOĞLU
**Yayım direktoru:**
Hacı BƏKİROĞLU
**Qrafik dizayn:**
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.